**İlhamə Valeh qızı Qasımova**

**UOT:336.11; JEL:G39.**

# Azərbaycan Respublikasında audit xidməti bazarının inkişaf problemləri

***Xülasə***

*Azərbaycan Respublikasında audit xidmətinin inkişaf etdiyi 25 ilə yaxın bir müddətdə bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunmuş, onun təşkili və tənzimlənməsi təkmilləşdirilmişdir. Bütün belə nailiyyətlərə baxmayaraq bu sahədə bir sıra əhəmiyyət kəsb edən problemlər də mövcuddur. Məqalədə ölkənin audit xidməti bazarının inkişaf səviyyəsi təhlil edilərək, mövcud problemlər müəyyən edilir. Həmçinin, bu xidmət sahəsinin perspektiv inkişafı ilə bağlı baxışlar irəli sürülür.*

***Açar sözlər**: audit xidməti, xidmətin təşkili və tənzimlənməsi, audit subyektləri, müqavilə dəyəri*

## Giriş

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə uyğun inkişafı və dünya iqtisadi sisteminə qovuşması və ölkədə informasiyalı cəmiyyətin qurulması artıq auditin bir sahə kimi əsaslı şəkildə inkişafını zəruriləşdirir. Belə ki, beynəlxalq standartlara cavab verən maliyyə nəzarət sisteminin, xüsusilə də auditin yeni tələblər baxımındaan təşkili və tənzimlənməsi, audit bazarının səmərəliliyinin artırılması öz vacibliyi ilə çıxış edir. Audit xidmət bazarında yeni xidmətlərin təqdimi, müəssisə və təsrrüfat subyektlərinə geniş çeşidli məsləhət-konsaltinq xidmətlərinin göstərilməsi öz vacibliliyi ilə çıxış edir.



## Aəzrbaycanda auditin bir xidmət sahəsi kimi təşkili əsasları

Azərbaycanda nəzarət sisteminin təkmilləşdirilməsi və bu baxımdan da nəzarət mexanizmlərinin müasir iqtisadi inkişaf tələblərinin xüsusiyyətlərinə uyğunlaşdırılması müstəqilliyin ilk dövrlərindən qəbul olunmuşdur. Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu siyasətində bu sahə də daim diqqət mərkəzində saxlanılmış, onun inkişafının hüquqi-konseptual əsasları dövlət səviyyəsində müəyyən olunmuşdur. Göstərmək lazımdır ki, Heydər Əliyevin iqtisadi siyasətində əsassız, qanunsuz yoxlama və müdaxilə halları ilə audit arasında hüquqi sədd çəkilmiş, qanunsuz yoxlamalara qadağa qoyulduğu halda, auditin əhəmiyyətinə və inkişaf zəruriliyinə diqqət artırılmışdır (9, s.123). Belə ki, 1993-cü ilin ikinci yarısından başlayaraq ölkədə aparılan islahatlar çərçivəsində bütövlükdə maliyyə nəzarətinin, əsasən də auditor fəaliyyətinin beynəlxalq standart və tələblərə uyğunlaşdırılması sahəsində nəzərəçarpacaq tədbirlər həyata keçirilmişdir. Bu qisimdən ilk olaraq, 1994-cü ildə "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunun qəbul edilməklə, Azərbaycanda audit xidmətinin təşkili və tənzimlənməsinin hüquqi-konseptual əsasları qoyulmuşdur (1).

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən islahatlar və iqtisadi siyasət nəticəsində digər sahələr də olduğu kimi auditin inkişafında da müsbət nəticələr əldə edilmişdir. Belə ki, hazıradək qəbul edilmiş 200-dən artıq hüquqi-normativ sənədlərdə, qanunlarda və məcəllələrdə, dövlət başçısının imzaladığı fərman və sərəncamlarda audit xidməti bazar infrastrukturunun elementi və idarəetmə sisteminin mühüm vəsiləsi kimi təsbit edilmişdir (9, s.95). Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"nin təsdiqi (2) isə ölkədə audit xidmətinin həm institutsional, həm də təşkilati baxımdan fəaliyyətinə zəmin yaratmışıdr.

*© İlhamə Valeh qızı Qasımova Azərbaycn Kooperasiya Universiteti, dissertant*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Azərbaycan Respublikası Prezidentinin 1996-cı ildə imzaladığı "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərmanı paralel və lüzumsuz yoxlamaların azaldılmasına, iqtisadi subyektlərin qanuni mənafelərinin qorunmasına səbəb olmaqla, əslində audit xidmətinin sivil bir nəzarət forması kimi inkişafına da təkan vermişdir. "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Prezident fərmanında isə auditin bir sistem kimi islahatı dövlət quruculuğunun əsas istiqamətindən biri olaraq müəyyən olunmuşdur (4). Audit sahəsində digər bir islahat tədbiri kimi "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" ölkə başçısının 1999-cu il 7 yanvar tarixli fərmanı çıxış edir (5). Məhz bu fərman auditin beynəlxalq standartlara cavab verən bir nəzarət mexanizmi kimi təşkilinin və tətbiqinin əsasını qoymuşdur.

Ölkədə ilk dəfə olaraq (1999-2008-ci illər üzrə Auditorlar Palatası tərəfindən) "Azərbaycan Respublikasında audit sisteminin islahatı" konsepsiyası hazırlanmış və dövlət orqanlarına və təşkilatlarına təqdim olunmuşdur (10). Müvafiq konsepsiyada audit sisteminin inkişafı ilə bağlı aşağıdakı mühüm istiqamətlər müəyyən olunmuşdur:

- ✓ Auditin normativ hüquqi bazasının təkmilləşdirilməsi;
- ✓ Ölkədə beynəlxalq təcrübə əsasında auditin təşkil edilməsi;
- ✓ Peşəkar auditor kadrlarının hazırlanması və ixtisasartırmasının istiqamətləri;
- ✓ Auditin keyfiyyətinin yüksəldilməsi və ona nəzarət mexanizminin təkmilləşdirilməsi;
- ✓ Daxili və ekoloji auditin təşkil olunması sahələri üzrə zəruri tədbirlərin həyata keçirilməsi;
- ✓ Audit sistemləri arasında səmərəli kordinasiya əlaqələrinin yaradılması.



Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində milli audit sistemi artıq müasir dövrdə özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymaqla, həm də ölkədə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizədə mühüm rol oynamaqdadır. Belə ki, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında (2004-2006-cı illər)" auditə xüsusi diqqət yetirilmiş və onun inkişafı ilə bağlı aşağıdakı tələblər müəyyən edilmişdir (6):

- ✓ Auditin bir sahə kimi inkişafı məqsədilə onun qanunvericilik bazasının təkmilləşdirilməsi;
- ✓ Audit xidmətinin beynəlxalq audit standartlarına uyğunlaşdırılması;
- ✓ Milli audit standartlarının hazırlanmasının başa çatdırılması;
- ✓ Auditin institutsional bazasının və onun fəaliyyətinin təkmilləşdirilməsi;
- ✓ Auditorların və təşkilatların korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığının təkmilləşdirilməsi;
- ✓ Korrupsiyaya qarşı mübarizə sahəsində öhdəliklərin müəyyən edilməsi;
- ✓ Auditorların etik davranış kodeksinin korrupsiyaya qarşı mübarizə ilə bağlı təkmilləşdirilməsi.

"Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"da (2007-2011-ci illər) maliyyə nəzarəti olaraq audit xidmətinin təkmilləşdirilməsi üzrə əsaslı tədbirlər müəyyən edilmişdir və bu yanaşma artıq auditin həm də dövlətçilik, cəmiyyət həyatında daha ciddi rol oynamasına yönəlmişdir (7). "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası"nın həyata keçirilməsində audit xidmətinə verilən dəyər xüsusi əhəmiyyətliliyi ilə nəzərə çarpır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını həyata keçirmək, bu sahədə şəffaf biznes mühitinin yaradılmasını təmin etmək, ölkədə informasiyalı cəmiyyətin qurulmasını sürətləndirmək məqsədilə "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər)" qəbul olunmuşdur (8). Ölkədə bu xidmət sahəsinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişafı ilə bağlı qəbul edilən ikinci konsepsiya öz müasirliyi və əhəmiyyətliliyi ilə çıxış edir. Konsepsiyanın əsas məqsədlərini müvafiq şəkildə təsnifləşdirmək mümkündür:

- ✓ Audit xidmətinin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- ✓ Audit xidmət bazarının müasir tələblər baxımından inkişaf etdirilməsi və genişləndirilməsi;
- ✓ Dövlətin, müəssisə və subyektlərin və auditorların maraqlarının müdafiə olunmasının təmin edilməsi;
- ✓ Bu xidmət sahəsində tənzimləyici mexanizmlərin beynəlxalq prinsip və tələblərə uyğunlaşdırılması;
- ✓ Beynəlxalq audit standartların tələblərinə uyğun auditor fəaliyyətinin həyata keçirilməsi;
- ✓ Sosial-iqtisadi və ictimai həyatda auditin rolunun və nüfuzunun artırılması;
- ✓ Şəffaflığın artırılmasında, korrupsiyaya hallarına qarşı mübarizədə auditin fəal iştirakının təmin edilməsi;
- ✓ Reşəkar və yüksək ixtisaslı auditor kadr və mütəxəssislərinin davamlı hazırlanmasının təmin olunması.

Müvafiq konsepsiya sənədində audit xidmətinin müasir tələblərə uyğun vəzifələri ifadə olunur, bu xidmətin inkişafını əks etdirən əsas proqnozlar əsaslandırılır. Həmçinin, auditin tənzimlənməsi və onun keyfiyyətinin artırılması istiqamətləri irəli sürülür.

Azərbaycanda iqtisadi inkişaf prosesləri, qanunvericilik bazasının tədricən bazar münasibətlərinin tələblərinə uyğun təkmilləşdirilməsi audit xidmətinin inkişafı üçün real imkanlar yaratmaqdadır. Bütün bu müsbət irəliləyişlər eyni zamanda audit xidmətinin müasir tələblər baxımdan təşkili və təkmilləşdirilməsi zərurəti ilə sıx bağlıdır. Lakin, bu xidmətin müasir səviyyəsinin digər sahələrlə, xüsusilə də xidmət sahələri ilə müqayisədə kifayətqədər müsbət nəticələr əldə etməməsi müvafiq xidmət bazarının müasir tələblər baxımdan təşkilinə və inkişafına diqqətin artırılmasını ön plana çəkməkdədir.



Azərbaycanda təşəkkül taparaq, inkişaf edən audit xidmətinin əsasını onun dövlət, cəmiyyət, iqtisadiyyat, həm də fiziki və hüquqi şəxslərin maraqlarının gözlənilməsi, ölkədə şəffaf informasiya mühitinin yaradılması təşkil etməlidir. Belə yanaşma auditin dünya təcrübəsi ilə də uyğunluq təşkil edir və auditin nəzarət formasından çıxaraq, həm də sosial-iqtisadi inkişaf proseslərində aktiv rol oynayan bir qüvvə olmasına xidmət edir. Ən vacib məqam isə, auditin aşkar etdiyi problemlərin, catışmazlıqların aradan qaldırılmasına doğru fəaliyyətinin olmasıdır. Belə ki, müasir audit xidməti öz təklif və tövsiyələri ilə bir növ profilaktik-sağlamlaşdırıcı mövqedən daha çox çıxış etməlidir.

**Audit xidməti bazarının təşkili və onun inkişaf səviyyəsi**

Azərbaycanda audit xidmətinin inkişafı üçün əlverişli imkanlar mövcuddur. Buna baxmayaraq, bu xidmətin inkişaf səviyyəsi hələ də digər sahələrlə, əsasən də başqa xidmət sahələri ilə müqayisədə yüksək inkişafı ilə seçilmir. Audit xidmətinin inkişaf etdiyi 25 ilə yaxın bir dövrdə göstərilən xidmətlərin həcmi 3,3 milyon manatdan 44 milyon manata qədər artmışdır. Eyni zamanda, müqayisə olunan dövrdə ərzində ÜDM-in həcmi 20 dəfəyə yaxın artmaqla, 80 milyard manata çatdığı halda, audit xidmətlərinin həcmi 11 dəfə artması ilə müşahidə olunmuşdur. Lakin, auditin ÜDM-dəki payı 25 il ərzində dəyişməmiş və öz kiçik səviyyəsi ilə qalmışdır (0,001%). Həmçinin, son dövrdə ölkədə göstərilən xidmətlərin tərkibində də bu xidmətin xüsusi çəkisi ümumi xidmətlərin 0,01%-ni təşkil etməklə, öz aşağı səviyyəsi ilə fərqlənməkdədir (10). Xidmət bazarında yerinə yetirilən audit xidmətlərinin payında məcburi auditin xüsusi çəkisi öz yüksək səviyyəsi ilə (73%) ilə seçilir, lakin, könüllü (məsləhət-konsaltinq xidmələrinin) və digər audit xidmətlərinin payı aşağı səviyyədə (27%) qalmaqdadır. Belə vəziyyət auditin inkişaf etdiyi dövrdən hazıradək dəyişməmiş və digər audit xidmətləri zəif mövqeyi ilə seçilmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Milli audit xidməti bazarında 2012-ci illə müqayisədə 2016-cı ildə xarici auditor təşkilatlarının icra etdikləri müqavilələrin sayı 4% artmaqla 775 təşkil etmişdir. Müvafiq dövr ərzində yerli auditor təşkilatlarının icra etdikləri müqavilələrin sayı isə 20% azalmaqla 1048-ə enmişdir (10). Ölkədə auditdən keçməli olan subyektlərin (xüsusilə də, mövcud qanunvericilik üzrə məcburi audit subyektlərinin) böyük bir qismi bu xidmətdən istifadə etməməkdədir. 2010-ci ildə auditdən keçməsi icbari olan 2679 bələdiyyənin 50%-i, 1570 səhmdar cəmiyyətlərinin 18%-i, 23298 Məhdud Məsuliyyətli Cəmiyyətlərin 2%-i, 1609 xarici investisiyalı müəssisələrin 26%-i, 47 sığorta təşkilının 62%-i, 234 birgə müəssisənin 13%-i, 192 bank və kredit təşkilatının 54%-i bu xidmətdən yayınmışlar. 2017-ci ildə də bu sahədə durum yaxşılılığa doğru dəyişməməsi ilə nəzərə çarpmışdır. Göstərmək lazımdır ki, məcburi auditdən keçməli olan 67500 təşkilat, müəssisə və təsərrüfat subyektinin 2016-cı ildə yalnız - 3,2%-i, 2017-ci ildə isə daha az yəni cəmi - 2,2%-i bu xidmətdən istifadə etmişdir. Məcburi auditdən yayınma halları daha çox Məhdud Məsuliyyətli Müəssisə (0,9%) və Səhmdar Cəmiyyətləri (14,9%) və siyasi partiyalarda (30,9%) daha yüksəkliliyi ilə diqqəti cəlb edir (10). Belə qeyri-normal vəziyyət qanunvericilik bazasında olan boşluqlarla, ölkədə audit xidmətinin təşkili və tənzimləmə mexanizminin qeyri-təkmilliyilə, xidmətdən istifadə zərurətinin və bu sahədə məsuliyyət normalarının qeyri-konkretliyi və beynəlxalq təcrübədə olduğu kimi tam aydınlığı ilə ifadə olunmaması ilə bağlıdır. Digər tərəfdən isə, həmin subyektlərin çox vaxt maliyyə vəziyyətinin qeyri-qənaətbəxşliyi də onların audit xidmətindən istifadə imkanlarının qarşısına ciddi şəkildə sədd çəkir.

Azərbaycan Respublikasında göstərilən audit xidmətlərinin xüsusi çəkisində xarici auditor təşkilatlarının mövqeyi daha üstünlük (göstərilən auditor xidmətlərin 85%-i) təşkil etməkdədir. Müvafiq inkişaf meylində son on ildə müəyyən dəyişiklər baş versə də, lakin ölkənin audit bazarında xarici auditor təşkilatları daha üstün rəqabət qabiliyyətliliyinə malik olduğunu sübut etməkdədir.



**Sərbəst auditor və auditor təşkilatlarının inkişaf dinamikası**




Mənbə: diaqram audit.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkənin audit xidməti bazarında müqavilə məbləğlərinin orta dəyərinə görə xarici auditor təşkilatlarının göstəriciləri yerli auditor təşkilatlarının və sərbəst auditorların müvafiq göstəricilərindən daha üstün olması ilə fərqlənir. Xüsusilə də, 1996-cı ildə xarici auditor təşkilatlarının müqavilə məbləğlərinin orta dəyəri yerli auditor təşkilatlarınkından 12 dəfə, sərbəst auditorlarınkından 17 dəfə yüksək olduğu halda, bu göstərici son ildə yerli auditor təşkilatlarınkından 9,3 dəfə, sərbəst auditorlarınkından isə 39,4 dəfə çoxluğu ilə müşahidə edilmişdir (10). 2010-cı illə müqayisədə 2017-ci ildə ölkənin audit xidməti bazarında

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fəaliyyət göstərən sərbəst auditorların sayı 12% artması ilə nəzərə çarpmışdır. Həmçinin, bu bazarda fəaliyyət göstərən yerli auditor təşkilatların sayı müvafiq dövr ərzində 46%, xarici auditor təşkilatlarının sayı isə, 2,4 dəfə artmışdır (10).

Azərbaycanda xarici auditor təşkilatları fəaliyyət istiqamətindən və sahəvi xüsusiyyətlərindən asılı olmayaraq iri və maliyyə cəhətdən inkişaf etmiş təsərrüfat subyektlərinə xidmət göstərirlər. Həmçinin, ölkədə iri iqtisadi layihələrin həyata keçirilməsində, beynəlxalq maliyyə institutlarından kreditlərin alınmasında, investisiyaların cəlbində, iri tsərrüfat subyektlərinin məcburi auditində əsasən xarici auditor təşkilatlarının xidmətlərindən istifadə edilir. Bütün bunlara səbəb isə, xarici auditor təşkilatlarının ölkə və dünya bazarlarındakı yüksək nüfuzu, inkişaf etmiş maddi-texniki imkanları, işgüzar əlaqələri hesab olunmaqdadır. Yerli auditor təşkilatlarının və sərbəst auditorların sayının son dövrlər kifayətqədər artmasına baxmayaraq, onların əksər hissəsinin maddi və texniki imkanları zəifliyi, kadrlarının peşəkarlıq səviyyəsinin yüksək olmaması kimi amillər onların xidmət bazarındakı rəqabət qabiliyyətliliyinə mənfi təsir göstərir.

Ölkə regionlarının sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə Dövlət Proqramları təsdiq edilərək,icra olunur. Müasir şəraitdə bu və digər dövlət proqramları əsas götürülməklə audit xidmətinin regionlarda da inkişafına üstünlük verilməkdədir. Belə ki, Naxçıvan Muxtar Respublikasında, Sumqayıt, Gəncə, Lənkəran, Mingəçevir şəhərlərində, Şəmkir, Cəlilabad, Beyləqan, Ağcabədi, Ağdaş, Zaqatala və digər rayonlarında yerli auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyəti təşkil edilmişdir. Xarici auditor təşkilatlarının əsas fəaliyyəti daha çox ölkənin paytaxtında cəmləşmişdir. Tədqiqatlar göstərir ki, son dövrlərdə xidmətin həcmi bəzi regonlarda nisbətən artımı ilə müşahidə edilməkdədir. Belə ki, bu xidmət üzrə yerinə yetirilmiş müqavilələrin xüsusi çəkisinə görə 2000-ci ildə Bakı şəhərinin payı 88% təşkil edirdisə, 2017-ci ildə bu göstərici azalaraq 75%-ə enmişdir (10). Azərbaycanda audit xidmətinin inkişafına regional fərqlər özünü kəskin şəkildə göstərməkdədir. Audit xidmətinin sifarişçilərinin çox hissəsinin bu regionda olması göstərilən xidmətlərin xüsusi çəkisində Bakı və onun ətrafının hələ də üstünlük təşkil etməsinə səbəb olur. Regionlarda təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin qeyri-qənaətbəxşliyi onların mövcud xidmətin bir çox növlərindən istifadə etmək imkanlarını aşağı salır.



Auditin xüsusi əhəmiyyət kəsb edən məsləhət-konsaltinq yönümlü xidmət növlərindən istifadə səviyyəsi sırf xidmət bazarının tələb və təklif amili ilə bağlıdır. Bu xidmət növündən istifadədə iqtisadiyyat sahələrinin payı öz müxtəlifliyi ilə fərqlənir. Könüllü, məsləhət-konsaltinq xidmətlərinin istifadəsində xarici investisiyalı müəssisələrin, bank-sığorta təşkilatlarının xüsusi çəkisi 70%-dən çoxdur.

**Nəticə**

Auditin inkişafı bir sıra mühüm tədbirlərin həyata keçirilməsini ön plana çəkir və bu tədbirlərə əsasən aşağıdakıların aid olunması daha məqsədəuyğundur: auditin hüquqi-metodoloji bazasının təkmilləşdirilməsi; audit xidməti növləri arasında əməkdaşlığın genişləndirilməsi; auditin əhatə dairəsinin və xidmət bazarının genişləndirilməsi; audit üzrə əlaqəli xidmətlərin genişləndirilməsi; auditin təşkili və tənzimlənməsi ilə bağlı müasir təcrübənin tətbiqi; auditdən yayınma hallarının qarşısının alınması ilə bağlı tədbirlərin keçirilməsi; regionalarda auditin və onun növlərinin inkişafı üçün bütün mümkün imkanlardan istifadə edilməsi.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat


1. “Auditor xidməti haqqında”. Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
2. “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə”. Bakı, 1995.
3. “İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə”. Fərman. Bakı, 1996.
4. “Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında”. Fərman. Bakı, 1998.
5. “Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında”. Fərman. Bakı, 1999.
6. “Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)”. Bakı, 2004.
7. “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya”da (2007-2011-ci illər). Bakı, 2007.
8. Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyası (2012-2020-ci illər). Bakı, 2013.
9. Azərbaycan Respublikasında auditor xidmətinin formalaşması və inkişaf perespektivləri”. Elm nəşriyyatı. Bakı, 2006.
10. http://www.audit.gov.az.


***Илхама Валех кызы Касумова***

### *Проблемы развития рынка аудиторской службы в Азербайджанской Республике*

***Резюме***

За последние 25 лет развития службы аудита в Азербайджанской республике достигнуты значительные успехи в этой области, улучшена ее организация и регулирование. Несмотря на все такие достижения, в этой области существует ряд важных проблем. В статье анализируется уровень развития рынка аудиторской службы страны, определяются существующие проблемы. Также выдвигаются взгляды на перспективное развитие этой сферы услуг.

**Ключевые слова:** служба аудита, организация и регулирование услуг, субъекты аудита, стоимость контракта



***Ilhama Valeh Gasimova***

### *Problems of development of audit Service Market in the Republic of Azerbaijan*

***Summary***

During the 25 years of development of audit service in the Republic of Azerbaijan, significant progress has been achieved in this area, its organization and regulation have been improved. Despite all such achievements, there are a number of significant problems in this area. The article analyzes the level of development of the country's audit Service Market and identifies the current problems. Also, the views on the development of this service sector are put forward.

**Keywords:** audit service, organization and regulation of the service, audit reports, contract value

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:20.05.2019.***
***Çapa qəbul olunub:23.05.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*